# Şəhidlərin xatirəsinə ehtiramın nümunəsi

**Şəhid ailələri, qazilər, müharibə veteranları dövlət tərəfindən daim yüksək diqqət və qayğı ilə əhatə olunurlar. Prezident İlham Əliyev onların problemlərinin həllini bütün dövlət qurumları qarşısında əsas vəzifələrdən biri kimi müəyyənləşdirib.**

## 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olanlar və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb

Dövlət başçısı şəhid ailələrinin, müharibə əlillərinin sosial rifahının yaxşılaşdırılması üçün onların mənzillə təminatı, aylıq təqaüdün ayrılması, birdəfəlik yardımlarla bağlı müxtəlif sərəncam və fərmanlar imzalayır. Eyni zamanda şəhid statusu almış ailələrə verilən təqaüdlərin məbləği hər il artırılır. Təbii ki, bu kateqoriyadan olan, 1990-cı ilin 20 yanvarında xalqımızın azadlığı uğrunda şəhid olmuş qəhrəmanların ailə üzvlərinə və həmin faciədə əlil olmuş insanlara diqqət dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir.

İlk olaraq Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilərək, şəhid ailəsi üzvlərinin və əlillərin hərtərəfli qayğı ilə əhatə olunması üçün qərarlar verilib. Bu istiqamətdə aparılan dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.

Dövlət başçısının 2006-cı il 19 yanvar tarixli fərmanı ilə "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilib. Şəhid ailəsi üzvlərinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə "20 Yanvar Şəhidi" fəxri adını almış insanların ailə üzvlərinə ayda 300 manat məbləğində Prezident təqaüdü təyin olunub.

### Prezident təqaüdünün aylıq məbləği 600 manat müəyyən edilib

Ödənilən təqaüdün məbləği dövlət başçısının müxtəlif illərdə imzaladığı fərmanlarla artırılıb. Son olaraq ölkə rəhbərinin 5 yanvar 2023-cü il tarixli fərmanı ilə 20 Yanvar şəhidinin ailəsi üçün Prezident təqaüdünün aylıq məbləği 600 manat müəyyən edilib.

Prezident eyni zamanda müharibə və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə təqaüdün verilməsi üçün də fərman imzalayıb. 2023-cü il 5 yanvar tarixli fərmana edilən dəyişikliyə əsasən, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 500 manat, funksiyaların 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 400 manat, 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə isə 330 manat aylıq təqaüd təyin olunub.

20 Yanvar şəhidlərinin əmək pensiyası almaq hüququ olmayan ailə üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlərə görə, 20 Yanvar əlillərinin 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar 18 yaşınadək) uşaqlarının hər birinə aylıq sosial müavinətlər verilir. Prezidentin 18 mart 2014-cü il tarixli sərəncamı ilə digər müvafiq kateqoriyalardan olanlar kimi, 20 Yanvar əlilləri və şəhidlərinin də respublikanın ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan uşaqları təhsil haqqından azad olunublar.

Ümumilikdə, ötən dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 20 Yanvar şəhidlərinin ailələrinə, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olanlara 139 mənzil, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə 100-dək avtomobil təqdim edilib.

Uğurlu sosial siyasət nəticəsində 20 Yanvar şəhidlərinin ailələrinin, həmçinin əlillərin sosial müdafiəsi ildən-ilə gücləndirilir. Şəhid ailələri və əlillər mənzil, avtomobil, aylıq təqaüd və müavinətlə təmin olunur, eyni zamanda sosial ödənişlərin məbləği, demək olar ki, hər il artırılır. Dövlətin bu istiqamətdə gördüyü işlər, tədbirlər, layihələr davamlı xarakter daşıyır. Görülən işlərdən əlavə bu həssas əhali qrupu üçün əmək, vergi və digər sahələrə dair qanunvericiliklərdə bir sıra imtiyaz və güzəştlər əksini tapıb.

Bütövlükdə ölkəmizdə 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşdırılıb.

### Dövlət başçısı görülən işləri diqqətdə saxlayır

20 Yanvar və Birinci Qarabağ müharibəsinin şəhidlərinin uyuduğu Şəhidlər xiyabanında daim təmir və yenidənqurma işləri aparılır.

Xiyabanda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Əbədi Məşəl abidə kompleksi ucaldılıb. Abidənin yaradılması ilə bağlı təşəbbüs 1994-cü ildə Milli Məclisdə bu faciəyə qiymət verilərkən Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülüb. Məsələni diqqətdə saxlayan Ulu Öndər yaradılmış komissiyaya tapşırıq və tövsiyələrini verib, 5 avqust 1998-ci il tarixdə Bakı şəhərindəki Şəhidlər xiyabanında Əbədi Məşəl abidə kompleksinin ucaldılması haqqında sərəncam imzalayıb. Abidənin açılışı 1998-ci il oktyabrın 9-da olub. 2007-ci ildə isə Prezident İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanı rekonstruksiya olunarkən Əbədi Məşəl abidəsinin sütunları hündürləşdirilib, abidədəki səkkizguşəli ulduz və məsamələri qızılla işlənib.

Şəhid ailələrinə, müharibə iştirakçılarına diqqət və qayğını ən ümdə vəzifə kimi qarşıya qoyan Prezident İlham Əliyev daim bu kateqoriyadan olan vətəndaşlarla bağlı görülən işləri diqqətdə saxlayır. Dövlət başçısı şəhid ailələri ilə görüşdə qeyd edib: "...Mənim fəaliyyətimdə bu məsələ daim prioritet təşkil edir. Son illər ərzində şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu, mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 20 yanvar.- S.1; 7.